*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2024, №2* *ISSN: 2664-5432*
*Səhifə: 52-56*
*https://doi.org/10.59849/2664-5432.2024.2.52*

**Bəturə ƏLİYEVA***

# AZƏRBAYCAN DİLİNDƏ MORFEM ANLAYIŞININ YARANMASI VƏ TARİXİ TƏŞƏKKÜLÜ

## XÜLASƏ

Bu məqalədə Azərbaycan dilində morfem anlayışı və onun yaranması haqqında ümumi məlumat verilir. Morfemlərin söz yaradıcılığında əhəmiyyəti və rolu diqqətə çatdırılır.Affiksal morfemlərin sözdüzəltmə prosesində xüsusi önəm daşıdığı vurğulanır. Məqalədə həmçinin söz və morfem anlayışlarının fərqli cəhətləri aydınlaşdırılır.

**Açar sözlər:** *morfem, morfologiya , söz yaradıcılığı, suffiks, affiks*

Hər bir xalqın varlığı, mövcudluğu onun mədəniyyəti, tarixi, dili ilə müəyyən olunur. Azərbyacan dili də , oz tarixi inkişafı və zənginliyi baxımından fərqlənir. Azərbaycan dili eramızın V əsrində formalaşmışdır. Bu fakt bir daha sübüt edir ki, dilimiz dünyanın qədim dillərindəndir.Bildiyimiz kimi hər bir dilin ən üst qatında ədəbi dil dayanaır. Ədəbi dil iki hissədən yəni yazılı və şifahi ədəbi dillərdən ibarətdir. Azərbaycan dilində bu ədəbi dil formalarının təşəkkülü müxtəlif tarixi dövrləri əhatə etmişdir. Belə ki, VI-VIII əsrlərdən başlayaraq şifahı ədəbi dilimiz təşəkkül tapmışdır. Buna bariz nümunə kimi "Kitabi – Dədə Qorqud" dastanını göstərmək olar. Məhz bu dövrün əsas nümunələri bu dastanın tərkibində toplanmışdır. (1,s4)

Dilin əsas sütunu sözdür. Ümumilikdə qeyd etmək lazımdır ki, söz geniş anlayışdır. Sözün strukturunu, quruluşunu daha yaxşı anlamaq üçün onu təhlil etmək lazımdır. Sözləri üç istiqamətdə təhlil etmək olar.

1.Morfoloji
2.Sözyaratma
3.Etimoloji

Hər bir xalqın varlığı, mövcudluğu onun mədəniyyəti, tarixi, dili ilə müəyyən olunur. Azərbyacan dili də, oz tarixi inkişafı və zənginliyi baxımından fərqlənir. Azərbaycan dili eramızın V əsrində formalaşmışdır. Bu fakt bir daha sübüt edir ki, dilimiz dünyanın qədim dillərindəndir. Bildiyimiz kimi hər bir dilin ən üst qatında ədəbi dil dayanaır. Ədəbi dil iki hissədən yəni yazılı və şifahi ədəbi dillərdən ibarətdir. Azərbaycan dilində bu ədəbi dil formalarının təşəkkülü müxtəlif tarixi dövrləri əhatə etmişdir. Belə ki, VI-VIII əsrlərdən başlayaraq şifahı ədəbi dilimiz təşəkkül tapmışdır. Buna bariz nümunə kimi "Kitabi – Dədə

* AMEA Nəsimi adına Dilçilik İnstitutu. Hind-Avropa dilləri şöbəsi, bpyük elmi işçi.
Email: eliyevabeture201@gmail.com

Qorqud" dastanını göstərmək olar. Məhz bu dövrün əsas nümunələri bu dastanın tərkibində toplanmışdır. (1,s4)

Dilin əsas sütunu sözdür. Ümumilikdə qeyd etmək lazımdır ki, söz geniş anlayışdır. Sözün strukturunu, quruluşunu daha yaxşı anlamaq üçün onu təhlil etmək lazımdır. Sözləri üç istiqamətdə təhlil etmək olar.

1.Morfoloji

2.Sözyaratma

3.Etimoloji.

Morfoloji təhlil zamanı sözün müasir dildə morfoloji tərkibi öyrənilir. Sözügedən təhlilin əsas məqsədi sözün bir vahid kimi morfoloji cəhətdən hansı morfemlərdən ibarət olduğunu təyin etməkdir. Bu zaman şəkilçilərin sözə necə əlavə olunması deyil, təhlil olunan sözdən hansı morfemlərin ayrılması məsələsi ön planda dayanır.Morfoloji təhlil olunmaq üçün sözlər iki yerə bölünür (1,s420).

1) Morfoloji cəhətdən təhlil oluna bilən sözlər-bu qisim sözlərə həm sadə (daşlar, həyətdə, görür, udur, əl, bacadan, kitablar və s.) həm də düzəltmə sözlər aiddir (gözlük, gözsüz, unlu, duzlu, çörəkçi, güldan, əkinçi, sənətşünas) və s.

2) Morfoloji cəhətdən təhlil oluna bilməyən sözlər - bu cür sözlərə əksər hallarda tərkibində tək morfem işlənən sadə sözlər aiddir. (diş, qaz, əl, kəs, bir , ud ,ay və s.).

Sözlərin təhlil prinsiplərinə baxanda bir daha aydın olur ki, morfoloji və söz yaratma təhlili zamanı sözlərin ən kiçik hissələri hesab olunan morfemlər xüsusi önəm daşıyır.

Sözyaratma təhlili – bu təhlil çoxşaxəli prosesdir.Dilimzdə bu təhlil daha çox istifadə olunur. Burada əsas məqsəd sözün əmələgəlmə prosesini , əlaqənin sistemliliyini morfemlərin sözə münasibətini, sözlərin ilkin və ya törəmə olmasını, törəmə sözlərin hansı vasitəilə törəndiyini müəyyənləşdirməkdir. Məsələn: kəklikotu, şirin-şirin, dördbucaqlı, çəkməçi, açar və s.(2,s 421) Kəklikotu sözü kəklik və ot ümumi isimlərinin birləşməsindən, çəkməç sözü çəkmə isim və çi peşə bildirən sufiksindən ,şirin-şirin sözü şirin sifətinin təkrarından, açar sözü açmaq feli və -ar şəkilçisinin artırılmasından əmələ gəlmişdir.

Etimoloji təhlil – bu təhlil zamanı əsas məqsəd sözün etimologiyasını əvvəlki quruluşunu, məna strukturunu aşkar etməkdir.Etimoloji təhlil zamanı sözün ibarət olduğu morfemin tərkibi, tarixən dəyişməsi öyrənilir, sözün trəkibində mənşəyi aydın olmayan kök morfem varsa o dəqiqləşdirilir. Bu təhlil zamanı əsas məqsəd sözün mənşəyini, ilkin mənasını müəyyən etmək, onun qədim formasını ,səs cildini səciyyələndirmək müvafiq kökdən hansı üsulla yarandığını göstərməkdir. (2,s 421).

Morfologiyada söz morfoloji cəhətdən təhlil olunur. Morfoloji təhlildə sözün hansı hissələrdən ibarət olduğunu fərqləndirmək həlledici rol oynayır. Həm də sözün mənalı hissələrinə bölməklə onun tərkib hissələri müəyyənləşdirilir. Deməli, söz bölünən vahiddir.Xatırladaq ki, qədim dövrlərdə dilin morfoloji sistemi ilə

bağlı mülahizələrə görə söz bölünməz vahid kimi qebul edilirdi. XIX əsrin sonlarından başlayaraq morfoloji görüşlərin dəyişməsi nəticəsində sözə bölünən vahid kimi yanaşılmağa başladı. Belə ki, məhz bu dövrdən başlayaraq dilçilik elminin inkişafında əsil elmi mərhələ başlanmışdır. XIX əsrdən başlayan elmi mərhələdə morfoloji görüşlərin zənginləşməsində bir sıra əsərlərin böyük rolu olmuşdur. Məsələn; Frans Boppun (1791-1867) 1816-cı ildə yazdığı "Sanskrit dilinin yunan, latın, fars və german dilləri ilə müqayisədə təsriflənmə sistemi haqqında" və 1833-1849-cu illərdə yazılmış "Sanskrit, zend, erməni, yunan, latın, litva, köhnə slavyan, qot və alman dillərinin müqayisəli qrammatikası" adlı əsərləri Hind-Avropa dilçiliyində morfoloji görüşlərin inkişafında böyük rol oynamışdır. Bu əsərlərin müəllifinin fikrincə, Hind-Avropa dillərində sözlər qədim dövrlərdə təkhecalı olmuşdur. Təkhecalı köklər fel və əvəzlik kökləridir. Sonralar təkhecalı fel köklərindən fellər, isimlər, sifətlər; əvəzlik köklərindən isə önlüklər, bağlayıcılar və ədatlar yaranmışdır. Sözlərin qədimdə təkhecalı olması məsələsi türk dilləri üçün də xarakterik hesab olunur.(3,s 42)

Dilçilikdə morfoloji görüşlər zənginləşdikdən sonra morfem anlayışı özünə daha da diqqət çəkdi. Belə ki, dilin ən kiçik mənalı ünsürü morfem adlandırıldı . Morfem anlayışının dilçiliyə gətirilməsi İ.A.Boduen de Kurtenenin adı ilə bağlıdır. Morfem sözün tərkibinə daxil olan mənalı vahiddir və morfologioyada mənalı vahid olan morfemlərdən bəhs olunur. Morfologiyanın əsas obyekti sözdür.(5) Ona görə morfologiya morfemlər elmidir və dilimzdə işlənən morfemlər iki növə bölünür :

1. Kök morfemlər (əsas) – bu cür morfemlər söz köklərini əhatə edir. .(1,s26-27)

2.Köməkçi morfemlər – dilimizdə işlənən qoşma, bağlayıcı, ədat, şəkilçilər aiddir..

Sözlərin o hissəsi kök morfem sayılır ki, onlar müstəqil ifadə olunmaq, başqa morfemlərlə müstəqil əlaqələnmək imkanına malik olur və öz mənasını saxlayır. (6)Hal-hazırda morfem sözündən dilçilikdə geniş şəkildə istifadə olunur. Kök morfemlər həm leksik, həm də qrammatik mənaya malik olur. Şəkilçi morfemlər (yəni koməkçi morfemlər) isə yalnız qrammatik anlayışlar bildirir. (6)

Tarixən dilçiləri söz və morfem anlayışları arasında fərq maraqlandırmışdır. Əvvəla, qeyd etmək lazımdır ki, bir çox xüsusiyyətlərinə görə söz morfemdən fərqlənir.Bu fərqlərə qısaca nəzər salaq:

1.Söz leksik semantik, morfoloji- qrammatik bütövlüyə malik olan dil vahididir. Ona görə də sözün müstəqil mənası vardır. Morfem isə səs və səs birləşməsindən yarandığı üçün müstəqil mənaya malik deyil.

2.Söz müstəqil mənaya malik olduğu halda, morfem belə bir xüsusiyyətə malik deyildir. Ancaq kök morfemin müstəqil məna daşıması burada istisna hal kimi qəbul edilə bilər.

3. Morfem (şəkilçi morfem) sözə qoşulduqdan sonra öz ifadəsini sözdə tapa bilir. Lakin söz isə müstəqil işlənməklə hər hansı bir məfhumu ifadə edir. Deməli, söz adlandıra bildiyi halda, morfem adlandırmır. (3,s45)

4.Sözün sintaktik vəzifəsi olduğu halda, morfemin (şəkilçi morfemin) sintaktik vəzifəsi yoxdur.

Dilimizdə işlənən şəkilçilər iki böyük qrupa bölünür:

1.Sözdüzəldici şəkilçilər-lı$^4$, lıq$^4$, çı$^4$, dan, laş$^2$ və s

2.Sözdəyişdirici şəkilçilər.-ır$^4$, maq-mək, am$^2$, ın$^4$ və s(7)

Bu şəkilçlər bir-birndən fərqlənir. Qeyd edək ki, sözdəyişdirici şəkilçilərin hamısı öz dilimizə mənsubdur. Sözdüzəldici şəkilçilərdən bəziləri isə sözdəyişdirici şəkilçilərdən fərqli olaraq fars, ərəb və rus dillərindən dilimizə keçmişdir. Məsələn: -zadə (fars), -xana (fars), -şünas (fars), -xah (fars), -i (ərəb), -vi (ərəb), -iyyat, -iyyət (ərəb), -ist (rus), -izm (rus) pərəst(fars) və s. Sözdüzəldici şəkilçilər yeni-yeni sözlərin yaranmasında mühüm rol oynayır və fəal şəkildə söz yaradıcılığında iştirak edir. Sözdəyişdirici şəkilçilər isə yeni sözlər yaratmır və söz yaradıcılığında heç bir rolu yoxdur.

Dilimizdə işlənən şəkilçilər məna xüsusiyyətlərindən və işlənmə yerindən asılı olmayarq köməkçi morfem adlanır. Köməkçi morfemlər şəkilçilərin böyük bir qismini əhatə edir və onların da çoz hissəsini affiksal morfemlər təşkil edir. Affiksal morfemlərin tərkibinə daxil olan prefiks və leksik suffikslər sözdüzəltmə funksiyasına malikdir və kök ilə birlikdə sözün əsasını təşkil edeir. Sözdüzəldici morfemlər sözlərə birləşərək yeni leksik mənalar yaradır.

Azərbaycan dilində söz yaradıcılığı geniş imkanlara malikdir. Söz yaradıcılığının əsasında isə morfemlər mühüm rol oynayır. Sözdüzəltmədə affiksal morfemlərin (prefiks və suffikslər) rolu çox böyükdür. Morfem sözün minimal, bölünməyən mənalı, müstəqil olmayan hissəsidir. Sözün ayrılıqda işlənən, müstəqil məna ifadə edən hissəsi kök, sözün ayrılıqda işlənməyən və leksik məna bildirməyən hissəsi affiksial morfem adlanır. (4,s154) Bu morfemlərin bəziləri tarixən affiks olaraq yaransa da, sonradan dilin tarixi inkişafı zamanı dəyişikliklərə məruz qalmışdır. Qeyd edək ki, hətta bu gün onları kökün tərkib hissəsindən ayırmaq mümkün deyildir.

Dilçilikdə morfoloji yer haqqında görüşlər zənginləşdikdən sonra morfem anlayışı özünə geniş yer qazansa da, dilçilikdə morfem anlayışı tam şəkildə aydınlaşdırılmamışdır. Bu barədə müxtəlif dilçilərin öz yanaşması var.

## ƏDƏBİYYAT:

1. Kazımov. Q.Ş. Müasir Azərbaycan dili. Bakı, "Elm və təhsil", 2010
2. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası (dərslik), Bakı, "Nurlan" 2005.
3. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, Bakı, 2000
4. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı, Bakı, ADU nəşriyyatı, 1960
5. www.azerbaycandili.az
6. www.filologiya.az
7. www.anl.az

## EMERGENCE AND HISTORICAL ORGANIZATION OF THE CONCEPT OF MORPHEME IN THE AZERBAIJAN LANGUAGE SUMMARY

This article provides general information about the concept of morpheme and its formation in the Azerbaijani language. The importance and role of morphemes in word creation is brought to attention. It is emphasized that affixal morphemes have special importance in the process of word building.

**Key words:** morpheme, morphology, word building, suffixes, affixes

## ВОЗНИКНОВЕНИЕ И ИСТОРИЧЕСКАЯ ОРГАНИЗАЦИЯ ПОНЯТИЯ МОРФЕМЫ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ РЕЗЮМЕ

В данной статье представлены общие сведения о понятии морфемы и ее образовании в азербайджанском языке. Обращается внимание на значение и роль морфем в словообразование. Подчеркивается, что особое значение в процессе словообразования имеют аффиксальные морфемы. В статье также уточняются разные аспекты понятий слово и морфема.

**Ключевые слова:** *морфема, морфология, словообразование, суффиксы, аффиксы*